# “Keşikçidağ”ın mədəni irsi Özbəkistanda nümayiş olunub




***Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə ölkəmizin zəngin mədəni irsinin və arxeoloji abidələrin təbliği məqsədilə Özbəkistan Respublikasının Səmərqənd şəhərində keçirilmiş "Heritage Turquoise: Restavrasiya, arxeologiya, muzeyçilik, kitabxanaçılıq texnologiyaları" adlı beynəlxalq sərgi-konfransda Azərbaycanı təmsil edən "Keşikçidağ", "Avey", "Ağsu", "Çıraqqala-Şabran", "Pir Hüseyn Xanəgahı" Dövlət Tarix-Mədəniyyət qoruqları, "Qobustan" Milli Tarix-Bədii Qoruğu və "Quba Soyqırımı Memorial Kompleksi"nin rəhbər və əməkdaşları iştirak etmişlər.***

Sərgidə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu da öz stendi ilə təmsil olunmuşdur. Qoruğun təqdimatında ərazidə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmiş artefaktlar, elmi və maarifləndirici çap məhsulları, eləcə də tanıtım materialları nümayiş etdirilmişdir. Bu təqdimat vasitəsilə qoruğun tarixi, mədəni və elmi əhəmiyyəti beynəlxalq auditoriyaya çatdırılmışdır. 3 gün ərzində davam edən sərgi-konfrans çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə məxsus stendə həm konfrans iştirakçıları, həm də Səmərqənd şəhərində fəaliyyət göstərən müxtəlif universitetlərin tələbələri tərəfindən çoxsaylı baxış olmuşdur. Tədbirin təşkil edildiyi "İpək Yolu Turizm və Mədəni Miras Universiteti"nin kitabxanasına qoruğa məxsus çap məhsulları hədiyyə edilmişdir. Qoruq ərazisində yerləşən abidələr və aparılmış arxeoloji qazıntılar haqqında məlumatlardan bəhs edən "Mədəni irsimiz Keşikçidağ - təsvirli bələdçi" jurnalı tədbir iştirakçılarının xüsusi marağına səbəb olmuşdur.

Sərgi çərçivəsində müxtəlif ölkələrdən olan iştirakçılarla tanışlıq və təcrübə mübadiləsi aparılmış, iştirakçılar digər ölkələrin mədəni irs guşələrini ziyarət etmişlər. Restavrasiya və arxeologiya sahəsində çalışan mütəxəssislərlə yerində fikir mübadiləsi aparılmışdır. Həmçinin Özbəkistanın Səmərqənd şəhərində yerləşən ən zəngin və tarixi mədəni irs obyektlərindən olan Səmərqənd muzey-qoruğu və Teymurləng (Əmir Teymur) Tarixi Dövlət Muzeyi ziyarət olunmuşdur. Hər iki qoruq ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu ilə qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunmuş, onların fəaliyyət təcrübələri və metodoloji yanaşmaları ilə əlaqələr qurulmuşdur. Qeyd edək ki, Teymurləng Tarixi Dövlət Muzeyində 5 mindən çox eksponat nümayiş olunur və bu obyekt həm yerli, həm də xarici tədqiqatçılar üçün maraq doğurur.

Özbəkistanın mədəni irsini öyrənmək məqsədilə Gur-Əmir türbəsi və müsəlman dünyasında ən böyük alimlərdən olan Uluqbəyin məzarı ziyarət edilmişdir.

Tədbir Azərbaycanın mədəni irsinin beynəlxalq miqyasda tanıdılması, qarşılıqlı elmi əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsinin təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika .- 2025.- 6 iyun (№ 117).- S.8.